Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

**İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydasında və Sənaye parkları haqqında Nümunəvi Əsasnamədə dəyişikliklərin edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 fevral tarixli Fərmanı ilə edilmiş dəyişikliyə əsasən “Səlahiyyətli orqanın (İqtisadiyyat Nazirliyi)” funksiyalarına sənaye parkının idarəedici təşkilatı, operatoru və ya rezidenti tərəfindən malların idxalının əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunması məqsədilə verilmiş təsdiqedici sənədlər və həmin sənədlərdəki dəyişikliklər barədə məlumatlar 3 (üç) iş günü müddətində elektron qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə təqdim edilməsi nəzərdə tutulub.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın əvvəlki müddəalarına əsasən sahibkar aldığı, dəyişiklik edildiyi investisiya təşviqi sənədini, habelə ləğv edilmiş investisiya təşviqi sənədi barədə məlumatı özü müvafiq dövlət orqanlarına təqdim edirdi. Hazırda bu vəzifə sahibkarların üzərindən götürülüb və İqtisadiyyat Nazirliyi verdiyi təsdiqedici sənəd və həmin sənəddəki dəyişikliklər, habelə investisiya təşviqi sənədinin ləğvi barədə məlumatı 3 iş günü müddətində elektron qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə özü təqdim edəcək.

Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı linklərdən istifadə oluna bilər:

http://e-qanun.az/framework/25657
http://e-qanun.az/framework/32604